# PRES RELİZ

Bakı, 11 fevral 2015

# Aİ-nın yüksək səviyyəli rəsmi nümayəndəsi Azərbaycana səfər edir

**12 fevral 2015-ci ildə Avropa Komissiyasının Enerji İttifaqı üzrə Vitse-Prezidenti Maroš Šefčovič Cənub Qaz Dəhlizinin Məşvərət Şurasında iştirak etmək üçün Azərbaycana səfər edəcəkdir. Vitse-Prezident və Azərbaycandan olan nümayəndələrdən başqa, Gürcüstan, Türkiyə, Yunanıstan, İtaliya, Albaniya və Bolqarıstan kimi tranzit ölkələrdən olan nazirlər, eləcə də TAP və TANAP boru kəməri operatorlarının nümayəndələri iclasda iştirak edəcəklər.**

*"Azərbaycan Avropa İttifaqı üçün çox mühüm tərəfdaşdır. Strateji enerji tərəfdaşlığımızın mərkəzində Cənub Qaz Dəhlizi durur. Bu, daha böyük iqtisadi əməkdaşlıq təşviq edə biləcək, enerji təhlükəsizliyini artırmaqla Dəhliz boyu bütün ölkələrdə 30000-dən artıq iş yerinin açılmasına səbəb ola biləcək layihədir. Məqsədimiz 2019/2020-ci ilədək dəhliz boyu bütün infrastruktur layihələrini işlək vəziyyətə gətirməkdir. Bu məsələ Azərbaycanın gələcək iqtisadi inkişafı ilə bağlı olduğu kimi Avropanın enerji təhlükəsizliyi baxımından da mühüm hesab edilir"*, Vitse-Prezident Maroš Šefčovič Azərbaycana səfəri ərəfəsində demişdir.

Bu, vəzifəyə təyin olunduqdan sonra Vitse-Prezident Maroš Šefčovičin Azərbaycana baş tutan ikinci səfəri olacaqdır. Azərbaycan Respublikasının Prezidenti və digər dövlət rəsmiləri ilə Cənub Qaz Dəhlizini müzakirə etmək üçün Maroš Šefčovič 2014-cü ilin noyabr ayında Azərbaycana səfər etmişdir.

Delegation of the European Union,
Landmark III, 90A Nizami Street, AZ1010, Baku,
Azerbaijan
Tel. 012 497 20 63
Fax: 012 497 20 69
Email: delegation-azerbaijan@eeas.europa.eu
http://eeas.europa.eu/delegations/azerbaijan

The European Union is made up of 28 Member States who have decided to gradually link together their know-how, resources and destinies. Together, during a period of enlargement of more than 60 years, they have built a zone of stability, democracy and sustainable development whilst maintaining cultural diversity, tolerance and individual freedoms. The European Union is committed to sharing its achievements and its values with countries and peoples beyond its borders".